# BAKI ŞƏHƏRİNDƏ YAŞAYIŞ BINALARININ İNTENSİV TİKİNTİSİ ŞƏRAİTİNDƏ XX ƏSRIN YENİ ŞƏHƏRSALMA ESTETİKASININ YARANMASI

**İsbatov İlqar Aydın oğlu**– m.ü.f.d., dosent, Memarlığın əsasları kafedrası, AzMİU, isbatov@mail.ru

**Xülasə.** Məqalədə tədqiq olunan dövrdə küçə şəbəkəsinin və məhəllələrin xassələrinin kəmiyyətcə qiymətləndirilməsindən ibarət olan yerli ərazinin landşaft şəraitini və şəhərsalma inkişafının xüsusiyyətlərini nəzərə alan, şəhərsalma irsi obyektlərinə malik olan şəhər ərazisinin yenidən qurulma prinsipləri əsasında formalaşmış ərazilərin yenidən qurulmasına və yenidən təşkilinə yanaşma nəzərdən keçirilir. Tədqiqatın məqsədi ərazinin təşkilinin nizama salınması və optimallaşdırılması üçün relyefin xüsusiyyətləri nəzərə alınmaqla ərazinin memarlıq- planlaşdırma təşkilini, şəhərsalma qovşağının funksional tamlığını təklif etməkdir. Tədqiqatın vəzifələri tikintinin sıxlığını, nəqliyyat infrastrukturunu, ərazinin, relyefin mədəni, sosial- iqtisadi xüsusiyyətlərini təhlil etməkdən ibarətdir. Tarixən təşəkkül tapmış morfotipin qorunub saxlanılması və uyğunlaşdırılması nəzərə alınmaqla ərazinin renovasiyası üçün layihə təklifi və tikintinin mövcud plan- məkan təşkilinin tərifi verilir.
**Açar sözlər**: şəhərsalma estetikası, şəhər məhəllələri, şəhərlərin tikintisi, planlaşdırma, memarlıq- məkan təşkili, mərkəzi ansambl

# THE EMERGENCE OF A NEW URBAN AESTHETICS OF THE XX CENTURY IN THE CONDITIONS OF INTENSIVE RESIDENTIAL DEVELOPMENT OF THE CITY OF BAKU

**Isbatov Ilqar Aydin**– PhD in architecture, ass.prof., department of Basics of architecture, AzUAC, isbatov@mail.ru

**Abstract.** The article discusses the approach to the reconstruction and reorganization of established territories based on the principles of the renewal of urban territory with urban heritage, considering the peculiarities of urban development and landscape conditions of the area during the period under study, which consists of using a quantitative assessment of the properties of the street network and neighborhoods. The study aims to propose an architectural and planning organization of the territory, including the functional content of the urban planning unit, considering the features of the relief for streamlining and optimizing the organization of the territory. The objectives of the study are to analyze the density of buildings, transport infrastructure, cultural, socio-economic characteristics of the territory, and the relief. The definition of the existing planning and spatial organization of the development and the design proposal for the renovation of the territory are given, considering the preservation and adaptation of the historically established morphotype.
**Keywords:** urban aesthetics, city blocks, urban development, layout, architectural and spatial organization, central ensemble

**Giriş.** Şəhərsalma estetikası haqqında bütün əsrlər boyu kök salmış təsəvvürlər 20- ci və 30- cu illərinqovşağında əsaslı şəkildə dağılmağa başladı. Bu ona görə baş verdi ki, şəhərin həm funksional- texniki təşkili, həm də bədii obrazı eyni zamanda dəyişməyə başladı. Doğrudan da, bu dövrdə şəhərlərin kənarlarında artıq ayrıca evləri olan ilk açıq məhəllələr yaranmışdır. Əgər əvvəllər küçə ensiz daş dəhliz idisə, indi küçə ilə birləşən məhəllədaxili məkanlar onun farvaterini mürəkkəbləşdirmiş və genişləndirmişdir. Küçənin tikililərdən asılı olmayan avtomobil yoluna çevrilməsi ilə, xüsusilə şəhər yollarının şəhərətrafı şosse ilə bağlı olan parklar boyunca çəkilməsi zamanı yaşıllıqların əhəmiyyəti xeyli artmışdır. Magistrallar və yaşayış məhəllələri ilə yanaşı elə həmin illərdə şəhərlərin mərkəzi rayonlarının yenidən dirçəldilməsinə başlanılmışdır ki, burada mövcud köhnə tikililərin arasında qəzet redaksiyalarının, radio mərkəzlərin, univermaqların, kinoteatrların iri binaları və çox vaxt mehmanxanaların nəhəng çoxmərtəbəli korpusları ucalırdı.

**Əsas hissə.** Beləliklə, planlaşdırma və tikinti üsullarının dəyişdirilməsi və onlarla birlikdə yeni tipli binaların da dəyişməsi şəhərin estetik probleminin köklü şəkildə yenidən nəzərdən keçirilməsinə zəmin yaradırdı. Amma bu hamısı deyildi. Şəhərsalma tarixi bizə göstərir ki, şəhərlərin memarlığının daha dərindən dəyişməsi, üslub kimi bədii- fəlsəfi sistemlərin dəyişməsi zamanı baş verir. Məhz şəhər zəminində üslubların

belə radikal dəyişməsi müharibələrarası dövrdə baş vermişdir. Ötən XIX əsrdə memarlığın ümumi bədii yoxsullaşması ilə üslublar haqqında yanlış təsəvvürlər bərqərar oldu. Memarlıq üslubu o zaman yalnız xarici dekorda görünürdü, halbuki həqiqi dərin üslublar ayrı- ayrı bina və şəhərsalma ansambllarının funksional əsasından tutmuş, onların bədii obrazı və detallarına qədər tamamilə hər şeyi qətiyyətlə əhatə edirdi. Yaranmış üslubdan asılı olaraq ona xas kompozisiya sistemləri formalaşmış, özünəməxsus proporsiya qamması qurulmuş, bu üslub üçün səciyyəvi koloristika işlənib hazırlanmış, memarın landşafta münasibəti müəyyənləşmişdir. Və deməli, üslub problemi, geniş anlamda estetikanın ümumi problemi idi. Ona görə də haqlı olaraq deyə bilərik: üslub necədirsə, şəhərin estetikası da o cürdür.

Köhnə şəhərlərə nüfuz edən hər bir yeni bədii- fəlsəfi sistemin əhəmiyyəti onu təmsil edən binaların sayına və bədii ifadəliliyinə düz mütənasib olaraq artır. Nə qədər ki, yeni binalar sayca azlıq təşkil edir və ya yad (kənar) tikililərlə uzaqlaşdırılır, yaxud da nəhayət ki, ölçü və forma baxımından əhəmiyyətsizdir, yeni funksional üslubun bədii imkanları şəhərin estetik təşkili vasitəsi kimi hələ də tam qiymətləndirilə bilməz. Lakin elə bir vaxt gəlir ki, yeni üslub şəhərin hakim üslubuna çevrilir. Belə dövrlərdə o, sanki "ümumxalq imtahanını verir", çünki bundan sonra bütün utilitar, mühəndis-texniki və estetik vəzifələr onda ümumiləşdirilir. Və bu üslubun yekun qiymətləndirilməsi, son nəticədə isə onun uzunömürlülüyü- yeni üslub sisteminin şəhərdə əlaqələndirici bədii qüvvə ola bilməsindən, onun emosional təsir vasitəsi kimi hansı imkanlara malik olmasından və nəhayət, memarlıq formalarının, faktura və rəng müxtəlifliyinin onun üçün nə qədər əlçatan olmasından asılıdır [1,2].

XX əsrin 30- cu illərinin ortalarında funksional üslub hələ o qədər də geniş yayılmamışdı və böyük şəhərlərin binalarını bədii cəhətdən ziddiyyətli dəf edəcək qədər güclü deyildi. Berlində əvvəlki kimi şəhərin müəyyənedici stilistik amilini təkəbbürlü Brandenburq qapıları olan ciddi Unter- den- Linden ansamblları təşkil edirdi. Parisin memarlıq obrazını, yarım əsr əvvəl olduğu kimi, geniş yayılmış Luvr- Tüiliri sarayı müəyyənləşdirirdi, minilliklərdən sağ çıxmış Romada isə nəhəng antik xarabalıqlar əzəmətli sakitliyini qoruyurdu və sanki dərk edirdi ki, heç bir yeni stilist həvəs onların əbədi hökmranlığını sarsıtmaq iqtidarında deyil. XX əsr ərzində təşəkkül tapmış İstiqlaliyyət, Azərbaycan, 28 May və digər prospektlərin üslub xüsusiyyətlərini müəyyənləşdirdiyi Bakı şəhərində də vəziyyət belə olmuşdur. Böyük şəhərlərin tikintisi əsrlər boyu formalaşmış obrazı demək olar ki, tamamilə qoruyub saxladığından, yeni üslubun bədii imkanları sırf birinci və ikinci dünya müharibələri arasında salınmış qəsəbə və kiçik şəhərlərin timsalında öyrənilməlidir. Azərbaycanda, yaxşı təşkil olunmuş və aydın şəkildə müəyyənləşdirilmiş şəhər ictimai mərkəzinə malik Sumqayıt, Mingəçevir belə şəhərlərə aiddir. Sumqayıt və Mingəçevir şəhərlərinin baş planlarının müəllifləri klassizm üçün ənənəvi olan uzununa simmetriya oxunu tətbiq etməklə böyük planlaşdırma vəzifəsini həll etmişdirlər. Bəlkə də mərkəzi ansamblın prototipi bir çox tarixi şəhərlərin meydanlar sistemi idi. Lakin istisnasız olaraq hamısı funksionalizmə xas olan stilistik formaları almışdırlar.

Bununla belə, planlaşdırma ideyasının aydınlığına və ayrı- ayrı binaların memarlıq dəyərlərinə baxmayaraq, Mingəçevir şəhərinin mərkəzi ansamblı tam qaneedici estetik təəssürat yaratmır. Sanki, Mingəçevirdə memarlıq formalarının ahəngdar və güclü uzlaşmasına nail olmaq üçün mümkün olan hər şey edilib: tərəflərin və meydanın konturları memarların bir çox nəsillərinin təcrübəsi əsasında yoxlanılıb; bina və qalaların hündürlüyü bir- biri ilə əlaqələndirilib; mərkəzi bulvara əsas giriş dəqiq qeyd edilib; yaşıllığın dekorativ imkanlarından taktiki şəkildə istifadə olunub; təbii işıqlandırma şərtləri nəzərə alınıb. Hər bir böyük üslubun özünəməxsus planlaşdırma formaları və üsulları var. Məsələn, İntibah dövrünün şəhərsalma sənəti sərbəst ortası olan həndəsi cəhətdən düzgün düzbucaqlı və trapesşəkilli sahələr yaratmışdır. Barokko üslubu, oval və dairəvi formaları tətbiq edərək, sahələrin konturlarını kəskin şəkildə dəyişdirdi və nəhayət, şüalarla sayrışan küçə sistemlərini beynəlxalq dövriyyəyə buraxdı. Sual olunur, funksional üslub üçün hansı planlaşdırma üsulları və formaları səciyyəvi idi və 20 və 30- cu illərdə dünya şəhərsalma praktikasına hansı yenilikləri gətirdi?

Korbuzye şəhərsalma stilistikasının şəksiz banisidir. Qarşılıqlı perpendikulyar "kardo" və "decumanus" baş küçələrinə malik Qədim Roma şəhərlərinin pərəstişkarı olan Korbuzye, yaratdığı düzbucaqlı planlaşdırma sisteminin ən yeni variantının carçısı olmuşdur. Həndəsəyə göstərdiyi hədsiz həvəs nəticəsində (Korbuzyenin fikrincə, həndəsə hərtərəfli üstünlüklərə malik idi və hətta şəhərləri təhdid edən nəqliyyat qəzasından xilas etmək iqtidarında idi) onda düz xəttin və düz bucağın estetikasına pərəstiş yarandı. Korbürzyenin dünyaca məşhur "Vuazen planı" onun bütün sonrakı şəhərsalma fəaliyyətlərində ehtiraslı uvertüra kimi səslənirdi. Kamillo Zitte və şəhərlərin qeyri-müntəzəm "alman" planlaşdırmasının digər tərəfdarları ilə mübahisə edən

Korbüzye deyirdi: "Hərəkət düz xətt tələb edir. Düz xətt şəhərin ruhu üçün də əlverişlidir. Əyri xətt isə dağıdıcı, çətin və təhlükəlidir... İnsanın hər bir hərəkətində, hər bir insan niyyətində, bütün bəşər tarixində düz xətt- şəhər- saf (xalis, əsil) həndəsə var. Sərbəst olduğu üçün insanı saf həndəsə cəlb edir. Bu zaman o, nizam deyilən şeyi yaradır. Düz bucaq sanki dünyanı tarazlıqda saxlayan qüvvələrin inteqralıdır. Düz bucaq qanunidir, bundan əlavə: o bizim determinizmimizin bir hissəsidir, o məcburidir". Babilin, Pekinin və hətta Amerikanın "qəfəs şəkilli" şəhərlərinin düzbucaqlı baş planlarını lazımi dərəcədə qiymətləndirərək Korbuzye düz xətt və düz bucaq haqqındakı mədhiyyəsini bu ifadə ilə bitirirdi: "Güc və hərəkət möcüzəsi olan böyük şəhər indi təhlükə altındadır, çünki o artıq həndəsə ruhundan məhrum olub" [3,4].

Korbuzyenin yolu ilə gedən Andre Lürsa 1930- cu ildə tikililəri yalnız göydələnlərdən ibarət olan, planlaşdırması isə nəhəng düzbucaqlı məhəllələr sistemindən təşkil olunan şaquli şəhər" layihəsi ilə çıxış etmişdir. 1932- ci ildə Auqust Perre, Parisin 20- dən artıq peyk şəhərini Senanın bütün departamentini əhatə edən geniş kvadratın tərəflərinə yerləşdirməyi təklif edərək düzbucaqlı sistemi rayon planlaşdırma sahəsinə köçürdü. Lüdviq Gilbersaymer də Berlinin səs- küylü yenidənqurma layihəsi ilə müntəzəm düzbucaqlı planlara olan meyllərdən kənarda qalmadı.

Bununla belə, düzbucaqlı planlaşdırma sistemini əmələ gələn funksional üslub üçün səciyyəvi hesab etmək olmaz. Təbii topoqrafiyanın xüsusiyyətləri (və ilk növbədə, ərazinin aktiv şəkildə ifadə edilmiş relyefi və su obyektlərinin mənzərəli cizgiləri) bir sıra hallarda düzbucaqlı planlar da daxil olmaqla, bu və ya digər müntəzəm planların tətbiqinin mümkünlüyünü istisna edirdi. 30- cu illərdə planlaşdırma üsullarının palitrası əhəmiyyətli dərəcədə genişlənmişdi: Moskvada, daha sonra isə Londonda radial- konsentrik planlaşdırılma bərpa edildi: yaşayış binalarının küçələrin istiqamətindən asılı olmaması ilə bağlı təbliğat, küçə kəsişmələrini evlərin daş çərçivələrindən azad etdi, halbuki Amerikanın "avtomobil qəsəbələri" dərin və elastik əyri yol döngələrinin sərfəli olduğunu nümayiş etdirirdi. Bu hadisələrin təsiri altında Korbuzyenin düzbucaqlı planlaşdırmanın qüsursuzluğuna olan inamı sarsıldı və Əlcəzairin yenidən qurulmasının baş planını tərtib edərkən o, qanuna uyğun olaraq əyrixətli planla işləməyə məcbur oldu [5,6]. Üstəlik, insanların birgə yaşayışının kollektiv formalarının tərəfdarı olan Korbuzye, dəmir yolunda döngələrin hamar olması üçün relslərin əyildiyi kimi, öz nəhəng yaşayış falansterlərini də əyməyə başladı. Beləliklə, Korbuzye və onun həmfikirlərinin əsərlərində funksional üslubun özünəməxsus xüsusiyyəti olduğunu iddia edən düzbucaqlı sistem heç də yeganə sistem deyildi.

20- 30- cu illərin şəhərsalmasında ərazinin planlaşdırılması ilə bağlı heç bir spesifik üsul irəli sürülməmişdir. Həmin dövrün memarlarının işlədikləri planlaşdırma üsulları hələ yeni üslubun möhkəmlənməsindən əvvəl yaradılmışdır. Real tikintidə ərazinin ənənəvi planlarından istifadə olunurdu, lakin onların xarici görünüşü əhəmiyyətli dərəcədə dəyişirdi, çünki ərazini əhatə edən bütün binalar artıq yeni stilistik ifadə almışdır. Mayo şəhər qapısının yenidən qurulması kimi layihə təkliflərinə gəldikdə isə, orada nəqliyyat qovşaqlarının parterlərin və yüksək gövdəli bitki örtüyünün köməyi ilə şəhər məhəllələrindən təcrid edilməsi istisna olmaqla, prinsipcə yeni heç nə yox idi.

Tarix göstərir ki, özündə müəyyən üslub xüsusiyyətləri daşıyan yeni planlaşdırma üsullarının meydana gəlməsi çox zəhmət tələb etməsinə və şəhərsalma işlərinin uzunmüddətli xarakterinə görə üslubların inkişafında sonuncu aktdır. Üslubların formalaşması təkcə memarlığın estetik sferasında cərəyan edən proseslərlə məhdudlaşmır və şəhərsalma sənətinin mühəndis- texniki və funksional əsasları 20- 30- cu illərdə qırılma dövrünü yaşadığı üçün üslub baxımından müəyyənedici şəhərsalma üsullarını gözləmək hələ çox erkən olardı. Bu da bizi, Birinci və İkinci Dünya müharibələri arasındakı dövrü bütün kəmiyyət və keyfiyyət nailiyyətləri ilə hələ də memarlıq yaradıcılığının bütün sahələrinə yiyələnə bilməyən yeni üslubun yaranması və yayılması dövrü hesab etməyə vadar edir. Və hətta 30- cu illərin ortalarından etibarən yeni estetikanın inkişafı demək olar ki, tamamilə dayandı [7,8].

**Nəticə**. Məsələ bundadır ki, funksional üslubun qalibiyyət yürüşü fərqli düşünən memarların aktiv müqavimətinə səbəb olmaya bilməzdi. Ona qarşı açıq- aşkar düşmənçilik mövqeyi təkcə ayrı-ayrı ustadlar tərəfindən deyil, bütün məktəblər və hətta ölkələr tərəfindən də özünü göstərirdi. Məsələn, İtaliyada faşist rejiminin qurulması ilə Mussolinin başçılıq etdiyi hakim qaragüruhçular təşviqat və təbliğat maraqları baxımından guya nəticəsiz olan funksional üslubu rədd edirdilər. Yeni memarlığa daha böyük zərbəni faşist Almaniyası vurdu, özünü incəsənətdə səriştəli hesab edən Hitlerin birbaşa göstərişi ilə funksional istiqamət polis qadağasına məruz qaldı. İtaliya və Almaniyanın ümumavropa üslub cərəyanının tərkibindən çıxması isə

yeni memarlığı xeyli sarsıtdı. Bununla yanaşı, faşist diktatorlarının əmri ilə çoxdan köhnəlmiş bədii obrazlara və üslublara zorla müraciət edilməsi artıq yarımrəsmi barışmaz reaksiyanın başlaması demək idi. Köhnənin yeniyə qarşı dayağı kimi müxtəlif, mühafizəkar düşüncəli yaradıcı qüvvələr də onun ardınca gedirdi.

**Ədəbiyyat**

1. Бочаров Ю.П., Кудрявцев О.К. Планировочная структура современного города. Изд. Литературы по строительству, Москва, 160с., 1972
2. Бретаницкий Л.С., Саламзаде А.В. Архитектура Советского Азербайджана. Изд. Литературы по строительству, Москва, 264с., 1973
3. Смоляр И.М. Новые города (планировочная структура городов промышленного и научно-производственного профиля). Москва: Издательство Литературы по строительству, 184с., 1972
4. Лавров В.А. Реконструкция крупных городов (методическое пособие для проектировщиков), ЦНИИПИ по градостроительству. Изд. Литературы по строительству, Москва, 1972
5. Нагиев Н.Г. Современное градостроительство Азербайджанской Республики. Издательство «Təhsil işçisi mətbəəsi» MMC, Баку, 2011
6. Нагиев Н.Г., Гусейнов Ф.М. История архитектуры Азербайджана. Современная история архитектуры Азербайджанской Республики. V том, Издательский дом «Шарг-Гарб», Баку, 354с, 2013
7. Фатуллаев Ш.С. Градостроительство и архитектура Азербайджана XIX начала XX века. Ленинград: Стройиздат, 456с, 1986
8. İsbatov İ.A. Böyük Bakının Regional İnkişaf Planı (Ümumi plan). İzahat yazısı. Bakı Dövlət Layihə İnstitutu, Bakı, 2014

**References**

1. Bocharov Yu.P., Kudryavcev O.K. Planirovochnaya struktura sovremennogo goroda. Izd. Literatury po stroitel'stvu, Moskva, 160c., 1972
2. Bretanickij L.S., Salamzade A.V. Arhitektura Sovetskogo Azerbajdzhana. Izd. Literatury po stroitel'stvu, Moskva, 264c., 1973
3. Smolyar I.M. Novye goroda (planirovochnaya struktura gorodov promyshlennogo i nauchno-proizvodstvennogo profilya). Moskva: Izdatel'stvo Literatury po stroitel'stvu, 184s., 1972
4. Lavrov V.A. Rekonstrukciya krupnyh gorodov (metodicheskoe posobie dlya proektirovshchikov), CNIIPI po gradostroitel'stvu. Izd. Literatury po stroitel'stvu, Moskva, 1972
5. Nagiev N.G. Sovremennoe gradostroitel'stvo Azerbajdzhanskoj Respubliki. Izdatel'stvo «Tehsil ishchisi metbeesi» MMC, Baku, 2011
6. Nagiev N.G., Gusejnov F.M. Istoriya arhitektury Azerbajdzhana. Sovremennaya istoriya arhitektury Azerbajdzhanskoj Respubliki. V tom, Izdatel'skij dom «SHarg-Garb», Baku, 354c, 2013
7. Fatullaev Sh.S. Gradostroitel'stvo i arhitektura Azerbajdzhana XIX nachala HKH veka. Leningrad: Strojizdat, 456s, 1986
8. Isbatov I.A. Boyuk Bakinin Regional Inkishaf Plani (Umumi plan). Izahat yazisi. Baki Dovlet Layihe Institutu, Baki, 2014

Redaksiyaya daxil olma /Received 15.02.2022
Çapa qəbul olunma /Accepted for publication 15.03.2022

*Məqaləyə istinad: İsbatov İ.A. Bakı şəhərində yaşayış binalarının intensiv tikintisi şəraitində XX əsrin yeni şəhərsalma estetikasının yaranması. Elmi Əsərlər jurnalı AzMİU, s. 31-35, N1, 2022*
*For citation: Isbatov I.A. The emergence of a new urban aesthetics of the twentieth century in the conditions of intensive residential development of the city of Baku. Journal of Scientific Works/ Elmi eserler. AzUAC, p. 31-35, N1, 2022*